# Doğma Qarabağımız cənnətə çevriləcək

## *İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir*

Azərbaycanda ordu quruculuğu, silahlı qüvvələrin kompleks inkişafı və modernləşdirilməsi məsələləri ölkə rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Bu gün dünyanın güclü orduları sırasında layiqli yer tutan Azərbaycan Ordusu Vətən müharibəsinin gedişində ölkəmizin və dünyanın hərb tarixinə yeni şanlı səhifələr yazmışdır. Son on yeddi ildə ölkənin ərazi bütövlüyünün bərpa olunması Azərbaycan dövlətinin gündəliyində duran əsas məsələ idi. Buna nail olmaq üçün Prezident cənab İlham Əliyev beynəlxalq müstəvidə ardıcıl, məqsədyönlü fəaliyyət həyata keçirir, Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün bütün vasitələrdən istifadə edirdi. Belə qətiyyətli siyasətin nəticəsində də münaqişənin həlli üçün əlverişli hüquqi zəmin formalaşmışdı.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusu geniş əks-hücum əməliyyatı keçirərək, torpaqlarımızı azad etdi. 44 gün davam edən və noyabrın 10-da üçtərəfli bəyanatla yekunlaşan bu müharibənin nəticəsi isə artıq dünyaya məlumdur. İllərdir ki, Azərbaycan dövlətinin sülh danışıqlarına paralel olaraq öz hərbi arsenalını gücləndirməsi, silahlı qüvvələrini ən müasir səviyyəyə qaldırması müharibəyə öz qalibiyyət möhürünü vurmuş oldu.

Qələbə əsgər və zabitlərimizin mərdlik və şücaəti, fədakarlığı sayəsində əldə edilmişdir. Möhtərəm Prezidentimizin dediyi kimi, "bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Sözsüz ki, müharibədə qazandığımız şanlı qələbənin baş memarı isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Müharibə günlərində Prezident İlham Əliyev özünü müzəffər sərkərdə kimi təsdiqlədi. Düşmənin ötən il sentyabrın 27-də törətdiyi təxribat cavabsız qala bilməzdi. Silahlı Qüvvələrimiz mövqelərimizi və mülki əhalini qorumaq üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə döyüş əməliyyatlarına başladı. Ali Baş Komandan əməliyyatların gedişini şəxsi nəzarətində saxlayır və şəraitə uyğun göstərişlərini, tapşırıqlarını verirdi. Prezident İlham Əliyevin informasiya cəbhəsində fəaliyyəti də müharibədə şanlı qələbəmizin təmin olunmasında öz rolunu oynadı. Müharibə dövründə dövlətimizin başçısına necə böyük təzyiqlər göstərildiyinin şahidi olurduq. Ali Baş Komandan geri çəkilmirdi, bütün təzyiqləri dəf edir və xalqımıza daim qələbə soraqları çatdırırdı.

Dövlət başçısı çıxışlarından birində bu barədə demişdir: "Bizim qələbəmiz tarixi qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz".

Mübaliğəsiz demək olar ki, Azərbaycanın Vətən müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa etməsi böyük qələbədir və xalqımız tarixi qələbəsini də öz müdrik rəhbərinin başçılığı ilə qazandı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Möhtəşəm Qələbədən bir daha ilhamlandıq, qürurlandıq, gücləndik, daha da birləşdik və öz qədrimizi, dəyərimizi bildik, dostumuzu, düşmənimizi tanıdıq, gördük. Fəxr edirik ki, bizim rəşadətli Ordumuz, onun əzmkar əsgəri, qəhrəman, dünya hərb tarixinin fatehləri olan sərkərdələrimiz, generallarımız və Azərbaycanı dünyada ucaldan, öz iradəsi, bacarığı ilə hər şeyi diktə edən, istədiyi hədəfə doğru inamla, uğurla irəliləyən və Azərbaycan xalqına hər gün sevinc bəxş edən Müzəffər Ali Baş Komandanımız vardır.

Bütün bunlara baxmayaraq, rəşadətli Azərbaycan əsgər və zabitləri yüksək peşəkarlıqla, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçərək torpaqlarımızı azad etdilər. Dövlətçiliyimizin ən şərəfli səhifələrini yazan bu Zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoymaqla yanaşı, bir güllə atmadan, bir şəhid vermədən Ağdamı, Kəlbəcəri və Laçını işğaldan azad etdi və dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü yenidən təsdiqlədi.

44 günlük İkinci Qarabağ müharibəsi həqiqət anı olaraq bu reallıqlara bir daha işıq saldı ki, işğal altında olan torpaqlarımızı azad edən ordumuz Azərbaycan tarixinin ən unudulmaz səhifəsini yazdı. Dövlət başçımızın qətiyyəti, ordumuzun gücü, xalqımızın misilsiz dəstəyi sayəsində əldə olunan bu möhtəşəm qələbə, əlbəttə ki, tariximizin şanlı zəfəri kimi gələcək nəsillərin xatirəsində əbədi yaşayacaq. Tam əminliklə deyə bilərik ki, cəbhədəki uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi.

Milli Ordumuz döyüş meydanında zəfər yürüşünü davam etdirdiyi günlərdə cənab İlham Əliyev beynəlxalq mediaya, xarici telekanallara müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri, ən etibarlı mənbə olaraq, məhz Azərbaycanın dövlət başçısından əldə etdi. Ölkəmiz işğalçıların və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi", - deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olundu. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada öz qüdrətini göstərdi.

Bu gün isə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri hər bir vətəndaş üçün qürurvericidir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri həmişə böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin hər səfəri böyük əhəmiyyət daşıyan əlamətdar hadisələrlə yadda qalır. Azərbaycan Prezidentinin fevralın 14-də işğaldan azad olunmuş ərazilərimizə səfərində də ilkin infrastruktur layihələrinin təməlqoyma mərasimlərinin keçirilməsinin və açılışının şahidi olduq. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.

**Ramiz ƏLİYEV,**
**Cəbrayıl rayon prokuroru,**
**kiçik ədliyyə müşaviri.**

Respublika.- 2021.- 20 mart.- S.6.